# İNSANA ACI HARAY

## *"Ruhun savaşı" poeması haqqında düşüncələr*

***(Əvvəli ötən saylarımızda)***

Müəllif üçün ruhun savaşına çıxmaq asan başa gəlmir. Onun həyatının bütün səhifələri gözlərinin önündə canlanır. Və bu zaman şübhəsiz, bu səhifələrin ağ və qara notları da görünür. Əslində, müəllifin məqsədi bütün xeyirxah motivləri qabartmaq, onu dünyanın şər üzünə qarşı səfərbər etməkdir. Bu da müəllif üçün asan başa gəlmir. Çünki həyatda gördükləri bir ömrün, bir həyatın xronikası olsa da, əslində, sərhədsiz bir məkanı ifadə edir. İztirab çəkir, yuxusu ərşə qalxır, ruhu heç yerdə aram olmur, onun ruhunu oxşayan xoş xatirələr bəzi məqamlarda könlünü ovundursa da, ziddiyyətlərlə qarşılaşarkən stress keçirir. Gərginlik altına düşür. O görür ki, insanlar fərqlidir, hətta bəzən ayrı-ayrı insanların fərqli dünyagörüşündə olmaları onun gözündə yer, göy qədər fərqlilik yaradır. Sanki müəllif cəbhələr arasında dayanıb. Hər tərəf öz gücünü göstərməyə çalışır. Bu zaman müəllif ruhun yaxşının tərəfində görmək istəyir. Elə özü də bu qənaətdədir ki, əslində, elə yaxşılar həyatın nizamını qoruyur. Onlar olmasaydı, heə həyatın nizamı da qoruna bilməzdi. Əgər yaxşılıqlar unudulsaydı, insanlar rastlaşdıqları ağrı-acıları yaddan çıxarsaydılar, onda yaxşılıqların da izi itərdi. Müəllif bütün bunları belə ifadə edir: *"Olumdan ölümə bir yol gedirik... Açar salıb fikrimə, Çox mətləbi açmışam. Bəzən fikrin əlindən Baş götürüb qaçmışam. Yuxum çəkilmiş ərşə, Xəyallar sarmış məni. Yerlə göyə sığmayan, Ruhumdan dərbədər olmuş. İnsanlar fərqlidi, yerlə göy qədər. Kiminin qəlbində bir mərhəmət var. Kiminin ürəyi daşdan da soyuq. İnsan var yanında yıxılıb ölsən, Ruhu belə incimez, yoluna davam edər. İnsan da var yanında bir ah çəksən qıvrılar. Bütün ruhu titrəyər, dərhal əlindən tutub, Dərdinə ortaq olar. Əsirgəməz köməyin. Yer üzündə yaxşılar, yaxşı ki var... Yoxsa bağlı qapılar Elə bağlı qalardı. Çarəsiz insanların Necə olardı? Yıxılanın qolundan Bir qaldıran olmasa, Ölümün qarşısında Gözlərimiz dolmasa, Yaxşılıq yamana yoldaş olardı. İnsanlar şeytana qardaş olardı. Yer üzündə yaxşılar yaxşı ki, var..."* Hər halda bu düşüncələrin sonluğu müəllifin nikbin duyğuları ilə qurtarır. Yəni o sevinir ki, yer üzündə yaxşılar var və bu yaxşıların sayəsində həyat davam edir.

Müəllif ruhunun savaşını təmin etmək üçün hər cür çətinliklərə dözməli olur. Yalnız bu çətinliklərə dözümü ilə onu həqiqət arxasınca aparan ruhunu qoruyur.

O, yaxşı bilir ki, ilin fəsilləri olduğu kimi, insan təbiətinin də ovqat ahənginə görə dəyişən çağları var; qış fəslində soyuqlar tüğyan edir, bir vaxtsız çiçəyi şaxta ütür, yandırır. İnsan ürəyindəki ülvi hisslər də belədir. İnsanın ən üstün diləkləri qayğı görəndə, doğmalıq hiss edəndə pərvəriş tapır, həqiqətə çevrilir. Əgər insan qayğı görmürsə, özünə qarşı sərt rəftarla qarşılaşırsa, onda onun qayğı gözləyən diləkləri də öz aləmində - hələ canlı həyata qədəm qoymamış məhv olur.

Xeyirxahlıq niyyətləri, cəmiyyətə başucalığı gətirmək duyğuları bir körpənin dünyaya gəlişinə bənzəyir. Əgər ana öz bətnindəki uşağı qoruya bilirsə, onda dünyaya yeni nəfəs, yeni can gəlir.

Haqsızlıqlar, cəmiyyətdəki ədalətsizliklər insan duyğularının qəniminə çevrilir. Görünür, ədəbiyyatda da həsrət və vüsal qarşılaşmaları elə bu səbəbdən insanlığın əbədi mövzusudur. Müəllifin bəzi məqamlarda mistik düşüncəsi də xeyirə yozulmalıdır. O, insan həyatında baş verənləri Tanrının yazısı ilə əlaqələndirir. Amma əməli daha uca tutur. Əgər insan əməli olmasaydı onda heç Tanrının yazısı da insanın köməyinə çatmazdı.

Müəllif bütün bunları poetik düşüncələr qəlibinə salır, oxucuya aydın bir dillə məramını çatdırır: *"Olumdan ölümə bir yol gedirik... O qədər həsrətlə gözləmişəm sabahı Zənn etmişəm Gündüzün gəlişiylə Dağlar başımın dumanı Beynimdə fırlatdıqca Olanı, olmazı. Bəzən özümü qınamışam. Dünyaya təzə don geydirməyi, Mənasız saymışam. Dünya həmən dünyadı, Qarı, yağışıyla Məhəbbət dolu isti baxışıyla Ovudar insanları. Gah qayadan sərt olar. Sevgiylə, ümidlə qurulan yuvanı, Bircə anda uçurar. Ana övlad həsrətində, Övlad ana həsrətində, Bir ümidə sığınıb, Bir ömrü yaşayan var. Vüsala qovuşmadan, Həsrətlə bitən ömür, Öz abrına qısılıb Bircə kəlmə də demir. Baxışlar kitab kimi, Qarşında oxunsa da, Deməyə sözümmü var? Tanrı yazan taleyi, Qismati pozmaq olmaz. Həsrətlə ötən ömrü Yaxşıya yozmaq olmaz. Dünya həmən dünyadı, Yaxşı, yaman dünyadı".* Bütün hallarda dünya əzəlindən sonuna doğru öz yolundadır. İqlimlər dəyişə bilər, yer planetinin üstündəki canlı aləm yenilənə bilər... demək, insanlar da dünyagörüşü baxımından dəyişilə bilər. Amma hər halda dünya gələcək zamana doğru öz hərəkətindədir.

Müəllif Fələk və Mələk obrazlarından istifadə edir. Şübhəsiz, burada Fələk qəddarlığın rəmzidir. Mələk isə xeyirxahlığın timsalıdır. Amma burası var ki, bəzən həyatda Fələk də saxtakarlıq edir. O, donunu dəyişib Mələk görkəmində görünür. Heç ətrafın xəbəri də olmur ki, Mələk donunda olan Fələk dünyanı necə qarışdırır: *"Olumdan ölümə bir yol gedirik... Atını çapsa da amansız fələk Donunu dəyişib olsa da mələk, Dəryalar aşsa da, çaylar keçsə də, Xırmanlar sovurub, zəmi biçsə də, Saf təmiz niyyətin olar qənimi. Sənin saydıqların bir yanda qalar. Sıralar, sahmanlar özü hər işi. Bu qoca fələyin köhnə vərdişi".* Müəllifin düşüncəsinə görə, Fələk kifayət qədər güclüdür. O, həyatı sanki özünə tabe etməyə çalışır. Amma həqiqi mələklər də var.

Müəllifin düşüncəsi xəyalının uçduğu sərhədlər boyu hərəkət edir. O, cəmiyyətin hər tərəfini, hətta qaranlıqları belə görməyə çalışır. Şübhəsiz, bu zaman mənsub olduğu xalqın istinad bildiyi Vətənin də taleyinə biganə qalmır. Repressiyaları, müharibələri yada salır, baş verən hadisələrdə Şərin günahkar təbiətini insanların diqqətinə çatdırmaq istəyir: *"Olumdan ölümə bir yol gedirik... Hər kəsin bir ömrü, bir qədəri var. Bu açılan sabah ki, var Hər insanın taleyində Başqa cürə yazılar. Gecəni sübhə qədər oturub yatmayan var. Kimi xəstə başında, kimi can çəkişdirər. Kimi gözləri yolda, Bir xəbər həsrətində. Kimi düşmüş şanından - Vəzifə stolundan. Kimi övlad üçün Tanrıdan kömək dilər. Kimi səhərə qədər Göz yaşına bürünər. Kimi bir aldanışdan, Kimi bir dönük eşqdən, Kimi təzə gəlindi, Bürünmüş eşq nuruna. Kimi bir vəfasızın ilişibdi toruna. Hər açılan sabah ki var Hər insan taleyində Başqa cürə yazılar. Bir gecənin içində Çox qapılar döyüldü. Çox yuvalar dağıldı, Çox talelər çözüldü. Bir gecənin içində Yalan, yanlış imzalar, Geydirmə məhkəmələr Nə qurğular, qəzalar. Gecənin bir yarısı Qapıları döyülən, Özü öz günahını Heç özü də bilməyən, Əlləri qandallanıb Sürgünə göndərilən, Elə sorğusualsız Yerində güllələnən, Elə durub durmuşkən Düşünən beyinləri Bir gecədə məhv edən. Bir gecənin içində Bir nəslə qandal vuran, Bir əsrə qandal vuran Nə gecələr yaşanmış... Nə gündüzlər açılmış..."* Göründüyü kimi, Şər xislətinin bağlı qoyduğu qapılar, doğmalarının həsrətilə göz yaşı axıdan insanlar, övladlarını itirən anaların fəryadı - bütün bunların hamısı həyatda baş verənlərdir. O, ruhunu ona görə köməyə çağırıb ki, heç olmasa, gücü çatdığı qədər həyatı nizama qoya bilsin.

Həyat görk meydanıdır, baş verən hadisələrdən insanlar gərək nəticə çıxarsınlar. Nəyin düz, nəyin səhv olduğunu gərək anlasınlar. Dünyanın aldadıcı üzünə, yəni şər xislətli insanların şirin dilinə aldanmasınlar. Axı həyatın bu aldanışlarına düçar olanlar sonra həqiqəti biləndə gec olur: *"Olumdan ölümə bir yol gedirik... Kimsə ölümünü düşünmür deyən Günahlar qalanır günah üstünə. Bir ömür tamahın toruna düşüb, Aldanıb dünyanın şirinliyinə. Bir dünya dövlətin, Varın da olsa. Bir dünya şöhrətin, Şanın da olsa. Ölüm döysə qapını, Yetişərmi dadına? Elədiyin yamanlar bir ləkədir adına. Sonrakı peşmançılıq kimə fayda gətirmiş. Kimi yaxşı əməllə, Kimi yaman əməllə, Öz ömrünü bitirmiş".*

Sonrakı peşmançılıq kimə fayda gətirir ki?.. Sağ olanlar dünyadan köçənlərin arxasınca baxır və bir həqiqəti yaxşı görür; kimidən yaxşı əməl qalıb, kimidən pis əməl. Şair belə bir ritorik suala cavab vermək istəyir: Olmazdımı ki, dünyada hər kəs yaxşı əməli ilə xatırlanaydı.

Hətta insan öz zəhmətilə qazandığını belə normal həyat üçün xərcləyə bilmir. Niyə? Səbəbi nədir? Səbəbi budur ki, dünya görüşü həyatdan dərs ala bilməyib. Axı insan doğulan gündən dünyadan köçənəcən həyatdan dərs almalıdır.

Təəssüf ki, hər kəs özünü daha ağıllı bilir. Böyük Şəhriyar deyirdi ki, dünyada ədalətlə paylanmış olan bir sərvət var. Bu, ağıldır. Çünki heç kim öz ağlından şikayət etmir. Başqa sözlə, insanı özünüdərk etməsi uzun prosesdir və çətindir. Özünü dərk edə bilməyən insan ağlından, düşüncəsindən, qəbul etdiyi qərardan necə razı ola bilər. O, gördüyü ziyanı da, çəkdiyi əziyyəti də özü ilə bağlamır. Ona elə gəlir ki, bütün günahlar ona başqaları tərəfindən qərəzli münasibətin nəticəsi olaraq üzə çıxır: *"Olumdan ölümə bir yol gedirik... yığdığın, dərdiyin var-dövlət ki var Hərdən bəla olur sənin başına. Əynindən, ağzından kəsib yığdığın. Yada qismət olur, xeyir başına. Hərdən anlamayır insan insanı, Qovğalar, qadalar baş alıb gedir. Var-dövlət üstündə hətta doğmalar Az qala bir-birini çeynəyib didir. Qardaş qardaşına badalaq qurur. Dost dostun xəlvətcə belini qırır. Nədəndir güvənmir insan insana?! Nədəndir güvənmir qardaş qardaşa?!"* Doğru deyir, qardaş qardaşa güvənmir, qardaş qardaşın ayağının altını qazır, gücü çatan işin qulpundan yapışmır, insanlığın dərdinə şərik olmur. Hətta heç bilmir ki, qazanda qaynayan nədir gəlib nimçəsini qazanın qabağına uzadır; bir çömçə də mənim üçün çək, - deyir.

Bütün hallarda insanlıq xeyirə yönəlikdir, xeyirxahlıq niyyəti güdür. Ancaq öz mənafeyi buna imkan vermir. Unudur ki, əgər bir səhv eləyirsə, cəmiyyətin ziyanına bir iş görübsə, bunun pis nəticəsi onun öz başında çatlayacaq: *"Olumdan ölümə bir yol gedirik... Tanrı yaratdığın gözəl yaradıb, İnsanı hər şeydən özəl yaradıb. Hər yana baxıram bir möcüzədir. Dağı dirək yaradıb Bu möhtəşəm yerlərə. Buludlar göy üzündə asılıb tavan kimi, Ulduzlar çılçıraq tək sıralanmış göylərə. Ay gecənin hakimi, Günəş isə gündüzün. Tanrının yağdırdığı Hər damla yağış ki var... Onun mərhəmətindən Süzülən göz yaşları. Yerlər ki var nə ruzi, Nə bərəkət bitirər. Tanrı mərhəmətilə Min gözəllik yetirər. Çeşid-çeşid meyvələr, Çeşid-çeşid tərəvəz, Bu nə böyük möcüzə, Buna varmı bir əvəz?"* İnsanlar unudurlar ki, həyatın nemətləri hamıya çatacaq qədərdir. Yenə də qənimətçiliklə haqqı olmayana sahiblənməklə məqsədlərinə yetmək istəyirlər. Unudurlar ki, başqasının haqqı tapdananda nələr baş verir. İnsanlar hər hansı bir haqsızlığı ən yaxşı halda acıqla, kinayə ilə yola salır, gücləri çatmayanda isə qalan izləri göz yaşları ilə yuyurlar.

Həyat belədir, bütün hallarda nəinki göz yaşları, heç yağış da bütün izləri silib aparmır. Əməldən sonrakı izlərin yaxşı və pis tərəfləri çox aydın görünür. Bütün hallarda bu, həyatın yazılmış və yazılmamış kitabının səhifələridir. Kimsə bu səhifələri oxuya bilir, bundan nəticə çıxarır, kimsə oxuya bilmir və demək, nəticə də çıxara bilmir: *"Olumdan ölümə bir yol gedirik... Nədən söz bağımda sözüm tükənib. Alovum tükənib, közüm tükənib. Ruhumda ağrıya Dözüm tükənib. Artıq qorxum yoxdur Acı ölümdən. Kimsə incimamiş mənim dilimdən. Mən könül sındıran Söz söyləmərəm. Getməz ürəklərdən sözün yarası. Sən sözlə bir ürək, bir könül qırsan. Tanrı zaman-zaman sındırar səni. Sözünlə insanın qəlbini oxşa. Qoy ruhlar kədərdən, Qəmdən yuyulsun. Hər üzdə, hər gözdə Sevinc duyulsun. Gözlə qaş arasında Ölüm hər an müntəzir. Əzrayıl can almaq üçün Hər an bir fürsət gəzir. Hər gecəni ömrün son gecəsi bil. Hər gecə yatağa baş qoyan zaman, Dilinə kəlmeyi-şəhadət gətir..."* Bütün əsər boyu müəllif ruhu ilə birgə hərəkət edir, özünü də ruh kimi təsəvvür edir. Əgər özünü ruh kimi təsəvvür edirsə, onda qeyrilərinin ruhunun qarşılaşdığı başqa ruhları da görür, onların təbiətilə də tanış olur. Hər halda, ruhların öz sahiblərinə görə əzab çəkdiklərinin də şahididir.

Bütün hallarda o, istəyir ki, ruhlar qəmdən, kədərdən yuyulsun. Öz sahiblərinə görə, bir sözlə dünyada qalmış bəd əməllərə görə iztirab çəkməsinlər. Axı həyatı daha yaxşı yaşamaq olar.

***(Davamı var)***